BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2018

UOT 39.391/687

# SƏFƏVİLƏR DÖVRÜNDƏ NEYMƏTULLAHİLİK

**Ə.S.ƏHMƏD**
***Bakı Slavyan Universiteti***
***asker57@gmail.com***

*Məqalə Neymətullahiliyin Səfəvilər dövründə fəaliyyətinin araşdırılmasına həsr edilmişdir. Sonradan şiələşən neymətilər səfəvilərin hakimiyyətə gəlməsində və şiəliyin daha geniş ərazilərə yayılmasında mühüm rol oynamışlar. Müqəddəs imamların nəslindən olmaları və şiəlikləri onları Səfəvi hakimiyyəti ilə daha da yaxınlaşdırmışdır. Bu yaxınlıq onların həm Səfəvi dövlətində yüksək dini vəzifələr tutmasına, həm də Səfəvi sülaləsi ilə yaxın qohumluq əlaqələrinin qurulmasına imkan yaratmışdır. Lakin səfəvilərdə mərkəzləzdirilmiş dövlətin gücləndirilməsi ilə bağlı atılan addımlar, eləcə də yeni, mövqeləri güclənmiş üləma sinfinin Neymətullahilik də daxil olmaqla, bütövlükdə sufiliyə olan mənfi münasibəti nəticəsində təriqət təzyiqlərə məruz qaldı və fəaliyyətləri məhdudlaşdırdı. Eyni zamanda Neymətullahilərin də daxil olduğu bəzi dərviş qruplarının mərkəzi hakimiyyətə qarşı atdığı bir sıra addımlar və təşkil etdiyi qiyamlar da, Səfəvi rejimi tərəfindən sərt qarşılanaraq onların ciddi şəkildə cəzalandırılması ilə yekunlaşdı. Nəticədə təriqətin əsas qüvvələri ölkəni tərk edərək Hindistanda fəaliyyətini davam etdirmək durumunda qaldı. Ölkədə qalan özək isə tamamilə marginallaşaraq məhərrəmlik mərasimləri zamanı məzhəb davalarını təşkil edən qurumlara çevrildi.*

**Açar sözlər:** Neymətullahilik, sufilik, Səfəvilik, gəzərgi dərvişlər, qızılbaşlar.

XIII yüzillikdən başlayaraq bizim və bizi əhatə edən coğrafiyada yoxsulluğu, səfilliyi, şəriət qanunlarına münasibətdə biganəliyi təbliğ edən, qəribə hərəkətləri və keyim-keçmişləri ilə fərqlənən sufi xarakterli gəzərgi dərviş qrupları çoxalmağa başladı. Bu qrupların fərqli özəllikləri olmasına baxmayaraq, onların, demək olar ki, hamısı Qələndərlik adlanan cərəyanın çətiri altında birləşirdi. Onlar toplumun əksəriyyəti tərəfindən pis qarşılansa da, yayıldıqları arealda cəmiyyətin ictimai-siyasi həyatında bu və ya digər formada müəyyən rol oynamışdılar. Məhz, gəzərgi dərvişlərin fədakarlığı və səyləri ilə geniş xalq kütlələri arasında əlaqələrin qurulması, islamın yayılma prosesində olduqca təsirli olmuşdur. Xüsusilə də, türklər arasında islamın yayılmasında qələndərilərin böyük xidmətləri olmuşdur. B. Qordlevskiy bu barədə yazırdı: “Kiçik Asiyada zəngin xristian torpaqlarını udan böyük müsəlman dövlətinin qurulması, şiəliyə meylli "babalar", "batinler", "qələndərilər” və s. kimi yüzlərlə dərvişi, Xorasandan "cihad bölgəsinə" çəkmişdi” (13, 172). Təsəvvüf və Osmanlı mənbələrinin “abdal” kimi yad etdiyi Qələndərilər Osmanlı fəthləri zamanı ordu önündə dayanaraq igidliklər və möcüzələr göstərməsi haqqında

saysız məlumatlar vardır (4). Onlar bölgədə şiəliyin yayılmasında və Səfəvilərin hakimiyyətə gəlməsində də önəmli rol oynamışlar.

Bəhs etdiyimiz dövrdə Azərbaycan ərazisində yaranan və yayğınlaşan belə dərviş qruplarından biri də Neymətullahilik idi. Təriqətin banisi Hələb doğumlu, Şah Neymətullah-i Vəli Məhəmməd b. Abdillâh əl-Hüseyni əl-Kirmani (1330-1431) hesab edilir. Seyid olması və uzun müddət Kirman şəhərində yaşamasına görə Şah Neymətullah Kirmani kimi də tanınır (11, 133).

Neymətullahilik təriqətinin yaradıcısı Şah Neymətullah Dövlətşah və Hidayət kimi müəlliflərin söylədiyinə görə yeddinci imam **Məhəmməd əl Baqirin (676-743)** soyundan gələn bir seyid idi (16, 46). Qeyd edək ki, bu faktor (seyidliyi-Ə.Ə.) təriqətin sonrakı dövrlərində, onun şiə firqələr arasında asanlıqla yayılmasında və şiələşməsində (Şah Neymətullahın özü və ailəsi sünniliyə bağlı olmuşlar) mühüm rol oynamışdır (11, 134).

Gəncliyində mükəmməl bir təhsil alan Neymətullah Kirmani həcc ziyarəti üçün getdiyi Məkkədə Şeyx Abdulla əl-Yəfi ilə rastlaşaraq yeddi il müddətində ona müridlik edərək təsəvvüfə qatılır (10, 77). Vətənə dönərkən o Misirdə məşhur Şeyx Bədrəddinin şeyxi olan Seyid Şah Hüseyn Əhlati ilə görüşür. Şeyx burada Qayğısız Abdal zaviyəsində Qələndəri şeyxləri ilə tanış olur (16, 46). Onun Ərdəbildə olması və burada Şeyx Nəsrəddin Musadan Şeyx İbrahim Zahid Gilianinin xəlvət anlayışını mənimsəməsi haqqında da məlumatlar vardır (9, 191). O, Əhli beyt sevgisini də bu ustalardan mənimsəmişdi (11, 133). Sonra Şah Neymətullah Orta Asiyaya səfər etmiş və bir müddət təriqətin ideyalarını burada (Səmərqənd, Səbz və başqa şəhərlərdə) yaymışdır. Türkmən tayfaları arasında böyük nüfuz qazanan Şah Vəli ətrafına böyük mürid ordusu toplaya bilir. O özü bu barədə yazırdı: "Yüz minlərcə türk var məndə / Haraya getsəm sultan kimi gedərəm" (11, 133). Adı buradakı türkmənlər arasında məşhurlaşan Neymətullahın türkmənlərin müsəlmanlaşması və təsəvvüfə doğru istiqamətlənməsində böyük xidmətlərinin olduğu söylənilir (9, 191-192). Yerlilər arasında bu təliminin populyarlaşması və müridlərinin çoxluğu (müridlərinin sayının yüz mini keçməsi haqqında rəvayətlər dolaşmaqdaydı), eləcə də Şah Neymətullahın üsyan edəcəyi haqqındakı söz-söhbətlər Əmir Teymuru (1336-1405) ehtiyatlanmağa vadar edir və onun fəaliyyətini təqdir etmir (16, 47). Teymurun təhriki ilə Mavəraünnəhiri tərk etmək məcburiyyətində qalan Şah Neymətullah əvvəlcə Tus şəhərinə gəlir, sonra isə Herata gedir. Burada o, Əmir Hüseyni Hərəvinin oğlu Həmzə İmadəddinin qızı ilə evlənir. Lakin o burada da çox qalmır və İrana keçərək Kirman yaxınlığındakı Kühbənana (Kübənan) yerləşir. Burada onun tək oğlu olan Xəlilullah Kirmani dünyaya göz açır. Daha sonra burada bir müddət qaldıqdan sonra Yəzd şəhərinə köçür və burada dörd il qaldıqdan sonra yenidən Kirmanın Mahan kəndinə gələrək ömrünün sonuna qədər (25 il) bu kənddə yaşayır (11, 133).

Nemətullahiyyə təriqəti Şah Vəlinin ölümündən sonra da onun varisləri tərəfindən həm İran ərazisində, həm də qıraq bölgələrdə, xüsusilə də Hindistanda (oğlu Burhanəddin Xəlilullah tərəfindən) geniş yayılır. İranda təlimin

yayğınlaşmasında Şah Neymətullahın Kirmanda qalan oğlu Mir Şəmsəddin və nəvələri mühüm rol oynamışlar (11, 134).

Ə.Y.Ocaq azərbaycanlı Seyid Qasım Təbrizi və yaxud tərəfdarları arasında Seyid Qasımul-Ənvar (öl. 1433) adı ilə tanınan sufi şairin neymətullahilərnən ideyaca bir-birinə yaxın olduqlarını ehtimal edir. Araşdırıcıya görə Ənvar istər öz şəxsiyyəti, istərsə də ətrafına topladığı müridlərin nümayiş etdirdiyi davranış, hərəkət və düşüncə standartları etibarilə Şah Nemətullaha çox bənzəyirdi. O mənbələrə əsaslanaraq hələ uşaq ikən onların Təbrizdə görüşdüklərini qeyd edir (16, 48). Əbdülrəhman Cami də Şah Nemətullahın müridləri kimi onun müridlərini də "dini iman təbəqəsindən xaric və ibahat (mübah, günah və savab olmayan işlər) və şəri-sünnətə əhəmiyyət verməyənlərin dairəsinə daxil" olanlar kimi qiymətləndirirdi (16, 49). Xatırladaq ki, Seyid Qasım hələ gənc yaşlarında Şeyx Sədrəddin Ərdəbili və Şeyx Sədirəddin Yəməni kimi sufilərin yanında seyri-sülük yolunu keçmiş, daha sonra onlardan xəlifəlik ünvanı alaraq Gilana getmiş və üzün bir müddət orada qalaraq bir çox mürid yetişdirmişdir. Oradan da Xorasana keçən Qasım "Vəhdəti-*vücud"* təliminə dair görüşlərinə görə ona təzyiqlər olmuş və buranı tərk edərək Herata getmişdir. Burada da onun ətrafında çoxlu müridlər ordusu toplandığını görən Şahrux bundan ehtiyatlanaraq onu Heratdan uzaqlaşdırır. Ömrünün sonlarına doğru, darıxdığı məmləkətinə, yəni Təbrizə getmək üçün yola çıxan Seyid Qasımın Əhmədi Caminin məmləkəti olan Cam qəsəbəsinə gəlincə, böyük bir məhəbbət bəslədiyi bu şeyxin şəhərində yerləşməyə qərar verir və burada da ömrünü başa vurur (16, 48-49).

Təriqətin müridləri qalın keçədən tikilmiş xirqə geyinir, başlarına keçədən düzəldilmiş yaşıl tac-papaq qoyurdular. Papağın üzərində əvvəllər beş xətt, sonralar isə on iki imamı simvolizə edən on iki xətt olurdu (8, 56). Vəhdətülvücud təliminin mənimsənilməsi, varlıq anlayışını izah edərkən ilm-i huruf simvollarına müraciət etmələri, xalqın onlar haqqında nə söylədiklərinə fikir verməmələri (məlamati davranışlara sahib olmaları), oturaq həyatdan səyahətə daha çox üstünlük vermələri (Dövlətşah da "Təzkirə"sində təsdiq edir ki, Nemətullahi dəvrişləri də Qələndəri zümrələri kimi İslam ölkələrinin hər tərəfinə səyahət etməkdədirlər (3, 402)), onları Mehdiçilik və On iki imam inanclı Qələndəriyyə və Heydəriyyə təriqətləri ilə xeyli yaxınlaşdırıdı (11, 134). Məhz ona görə də təlim geniş mənada Qələndəriliyin qollarından biri hesab edilirdi. Türkiyəli araşdırıcı Ə, Ocaq təriqətin Qələndəriyyə təliminə bənzəməsini ilk əvvəl onların İbahiliyə (Dinin əmrləri ilə əxlaqı və qanunu aktları qəbul etməyən qruplar) varacaq dərəcədə sərbəst ideyalara sahib olmaları ilə bağlayırdı və bildirirdi ki, bu cür davranış, ancaq Qələndəri zümrələrində olurdu. İkincisi isə bu Şah Neymətullah divanında yer alan və Şeyx Kutbəddun Heydərə ünvanlanan bir mədhiyyə ilə bağlıdır. Bu mədhiyyədə Şah Neymətullah, özünə əsl pir kimi Şeyx Qutbəddin Heydərini seçdiyini bildirir. Ə.Ocağın sözlərinə görə aralarındakı vaxt fərqinə baxmayaraq, bu vəziyyət, mənən Nemətullahiliyi Heydəriliyə bağlayır (16, 48).

Təriqətin özünəməxsus emblemi də mövcud olmuşdur. Emblemin yuxarı hissəsində iki çarpazlanmış təbərzin və ortasında ərəbcə yazı, təbərzinlərin kəsişmə nöqtəsində isə asılmış kəşkül və bir az aşağıda 99 dənəcikli zikr təsbehi təsvir edilir. Emblemin hər bir elementi rəmzi mənaya malikdir. Burada təbərzin - nəfsin kəsilib atılmasına; səyyar dərvişlərə verilən sədəqələr üçün kəşkül - mənəvi yoxsulluğa; ibadət, zikr təsbehi isə Allah qarşısında mütiliyə; təbərzinlər arasındakı ərəb əlifbası ilə yazılmış "HU" - yəni "O" sözü isə bilavasitə Allaha işarədir (17)

Qeyd edək ki, təriqət şiə mahiyyətli olub, şiəliyin daha geniş ərazilərə yayılmasında və İranda güclənməsində mühüm xidmətləri olmuşdu. F.Köprülü təlimin bu keyfiyyətinə diqqət çəkərək qeyd edirdi ki, Neymətullahilik hər tərəfə yayılan müridləri sayəsində İranda Şiəliyin guclənməsinə və Səfəvi dövlətinin qurulmasına çox böyük töhfə vermişdir (10, 77).

Şah İsmayıl hakimiyyətə gəldikdən sonra bir sıra sufi təriqətləri kəskin repressiyalara məruz qalır. Lakin həmin vaxtlar onun siyasi çıxarlar məqsədi ilə münasibətlər qurduğu azsaylı təriqətlərdən biri də Neymətullahilik idi (1, 167-168). Səfəvilərin hakimiyyətə gəlişindən sonra təriqətin ilk addımlarından biri şiə inancında olmasını bəyan etməsi və onlarla davamlı bir ittifaq qurması yönündə idi. Qeyd edək ki, Şah Neymətullahın ailə üzvilərinin I Şah Abbasa qədər Səfəvi xanədanlığı ilə həmişə yaxşı münasibətləri olmuşdur. Bu münasibət qohumluq telləri ilə daha da möhkəmlənmişdir. Səfəvilərin hakimiyyəti dövründə nüfuzlu seyidlər, o cümlədən Şah Neymətulla nəslindən olanlar cəmiyyətdə mühüm mövqeyə malik şəxslər idilər və bir qayda olaraq Şah hakimiyyəti tərəfindən sədarət (ali ruhani) vəzifəsinə təyin edilirdilər. İsgəndər bəy Münşi bu barədə yazırdı: «Bu vəzifə fazil, yüksək dərəcəli və təmiz seyidlərdən başqa digərlərinə verilmir» (7, 144). Şah İsmayıl hakimiyyətə gəldikdən sonra Şah Neymətullahın nəslindən olan Mir Nizaməddin Abdülbakiyi ali ruhani vəzifə olan "sədr", sonra "Əmürül-Ümərâ" və daha sonra da "Vəkil-i Nəfs-i Nəfîs-i Hümâyun" vəzifəsinə təyin etmişdi. Həsən bəy Rumlulu da bu məsələyə toxunaraq yazırdı: "... İsgəndər şanlı xaqan zilhiccə [ayının] (19.02-18.03.1512) əvvəllərində sədarət mənsəbini Rəbbani arif olan Əmir Neymətullah Kirmaninin övladlarından (nəslindən) Əmir Əbdülbaqi Yəzdiyə həvalə etdi (6, 414). O, öz yazıları və ibarələrinin gözəlliyi ilə tay-tuşlarından üstün idi (6, 428). Əmir Əbdülbaqi 1514-cü ildə III Səlimə qarşı Çaldıran döyüşündə vuruşarkən öldürülmüşdü (5, 304). Şah Neymətullah nəslindən olan Şah Neymətullah Yəzdi Şah İsmayılın qızı Şah I Təhmasibin bacısı Xanış xanımla evlənmişdi. Şah Təhmasibin vaxtında da bu qohumluq münasibətləri davam edir. Belə ki, Şah Təhmasib üçüncü qızı Xədicə Sultan bəyimi əri öldükdən sonra Mirmiran Yəzdinin oğlu Şah Neymətullaha ərə verir (17, 262). Yenə 1555-ci ildə I Şah Təhmasib Təbriz şəhərində təntənəli bir toy mərasimi keçirərək öz oğlu İsmayıl Mirzəni yenə Şah Neymətullah nəslindən olan Şah Neymətullah Yəzdinin qızı ilə evləndirir (5, 134).

XVI əsrin ikinci yarısında Neymətullah nəslindən olan Mirmiran Yəzdi

(ö.1591) dövrünün ən varlı və nüfuzlu şəxslərindən birinə çevrilir. İsgəndər Bəy Münşi onun haqqında yazırdı: "... ölkə seyidləri təbəqəsindən olan Mirmiran Yəzdidir. O, bu dudmanla qohumluğu sayəsində sərəfraz olan Şah Neymətullahın oğludur. Şah Neymətullah Vəli kimi tanınan sabiq Şah Neymətullahın müridləri onunla müridanə hərəkət edir, firavan yaşayırdılar. O, şahanə lütfkarlığa nail olmuşdu və çoxlu soyurqalı vardı. Həmin sülalənin əmlakı və idarələrindən əldə olunan gəlir beş min tümənə yaxın olardı. O, şahənşahlıq iltifatı sayəsində Yəzd darülibadəsində əzəmət və iqbal taxtına söykənərək gününü işrət və kamranlıqla keçirirdi. Övladlarından Şah Neymətullah və Şah Xəlilullah - hər ikisi bu dudmanla qohum olduqlarına görə başıucalıq tapdılar" (7, 273).

I Şah Abbasın hakimiyyətinin ilk illərində, Şahın təriqətlə, o cümlədən Mirmiran Yəzdi arasında münasibətləri kəskinləşir. Bunun səbəbi barədə Münşi yazır: "Cənab mir bu dudmanın qədrini bilmədiyindən və cahan nəvvabı – Sultan Həmzə Mirzənin zamanında, əlahəzrət şahın cülusunun əvvəllərində bəzi nalayiq əməllərinə, xüsusən üsyan və tüğyandan dəm vuran Bəktaş xan Əfşarı müdafiə etdiyinə, həmçinin sədaqətdən uzaq olan başqa əməllərinə görə bu əbədi dövlət tərəfindən cəzalandırıldı" (7, 273). Bu səbəblər arasında onun oğlu Şah Xəlilullahın qiyam qaldırmış Səfəvi sərkərdəsi Yaqub xan ilə müvəqqəti bir müttəfiqliyi məsələsi də vardır. Üsyan basdırılandan və Yaqub xan öldürülükdən sonra Şah Abbas Yəzidi ziyarət etdi və Şah Xəlilullah tərəfindən yüksək səviyyədə qarşılandı. 1591-ci ildə reallaşan bu səfər Səfəvilərin milli siyasətlərində neymətullahilərə verdikləri önəmin zirvəsi sayıla bilər (1, 174). Qeyd edək ki, bu görüşdə Şah Xəlilullah, Şah Abbası Neymətullah ailəsinin siyasi lideri kimi qəbul etdiyi halda, onun qardaşı IV Şah Neymətullah isə, Səfəvi hökmdarını təriqət liderinin dini nümayəndəsi kimi qarşılamışdı (1,174). Sonrakı dövrdə sufi təriqətlərə, o cümlədən Neymətullahilərə də olan mənfi münasibət onların Səfəvi torpaqlarında fəaliyyətini xeyli məhdudlaşdırır. Neymətullahilərin siyasi iddialarla çıxış etməsi amili də onların bu torpaqlarda fəaliyyətinin sonunu yaxınlaşdırır. Digər tərəfdən ölkədə rəsmi islamın, o cümlədən üləma zümrəsinin, bütövlükdə sufiliyə qarşı təzyiq və təqiblərinin artması Neymətullahilik də daxil olmaqla Səfəvi ərazisində mövcud olan sufi təriqətlərinin sıxışdırılmasına, fəaliyyətlərinin dayandırılmasına, yaxud qıraq ərazilərə mühacirət etməsinə səbəb olmuşdu. Bu cür münasibətlə üzləşən Neymətullahilik təriqəti də öz fəaliyyətini Hindistan ərazisinə keçirməklə orada fəaliyyətlərini davam etdirməyə başlayır. Mənbələrdə Səfəvi ərazilərində fəaliyyət göstərən sonuncu təriqət şeyxi Şah Süleyman Mirzənin adı çəkilir.

Təriqətin İranda qalan təşkilati özəyi isə yavaş-yavaş şəhər-məhəllə icmalarına çevrilərək, üçüncü şiə imamı Hüseynin şəhidliyi ilə bağlı məhərrəm ayında keçirilən əzadarlıq mərasimləri zamanı məzhəb davalarını təşkil edən qurumlara çevrilmişdi. Adətən bu cür davalar məhərrəmlik mərasimi zamanı Səfəvi şəhərlərində təşkil edilən küçə yürüşləri zamanı nemətilərlə qələndərlər arasında olurdu. Belə qarşıdurmaların olduğunu avropalı müəlliflər də təsdiq edir. XVII əsrin ortalarında Təbriz şəhərində olmuş və bu cür davaları izləyən

fransız səyyah və taciri J.B.Şarden yazırdı: "... şəhər biri digəri ilə düşmənçilik edən heydəri və neməti dəstələri arasında 9 məhəlləyə bölünmüşdü" (2, 269-270). XIX əsrin II yarısı XX əsrin əvvəllərində yaşayıb yaratmış azərbaycanlı ədib Zeynalabdin Marağayi də (1838-1910) özünün "İbrahim bəyin səyahətnaməsi" adlı romanında bu məsələyə toxunaraq yazırdı: "Burada mərhum atamın sözləri yadıma düşdü. O deyərdi: "İranın bir çox böyük şəhərlərində əhali arasında heydəri, neməti davası olur. Dava eləyən tərəflərin heç özləri də bilmirlər ki, Heydər kimdir, Nemət kimdir. Amma hər il bu iki adın tərəfgirliyi üstündə vuruşmalar olur, qanlar axıdılır, hətta çox vaxt qalib gələn tərəf məğlub olan tərəfin dükanlarını, evlərini də talayır" (14).

Səfəvilərin zamanından etibarən Şah Neymətullahın Mahanda (İran) yerləşən türbəsi genişləndirilmiş və günümüzə qədər önəmli ziyarət yerlərindən birinə çevrilmişdir (15, 192). Neymətullahilər Qacarların dövründə yenidən Azərbaycan, İran ərazilərinə dönərək əsas təriqət fəaliyyətlərini burada davam etdirməyə başlamışlar. Hal-hazırda təriqətin İrandan başqa Avropada, Afrikada, Avstraliyada, Kanada da xanəgahları mövcuddur (12, 313).

**ƏDƏBİYYAT**


1. Arjomand S.A. Safevî dönemi İran'inda dinî taşkinlik (gulüvv), sufilik ve sünnilik (1501-1722). Çevri: Namiq Musalı, Cappadocia Journal of History and Social Sciences. Vol. 7. Ahlen / Germany, 2016, p.160-195.
2. Azərbaycan tarixi XIII-XVIII əsrlər. 7 cilddə, III cild. Bakı: Elm, 2007, 592 s. + 56 s. illüstrasiya.
3. Devleteah. Devleteah Tezkiresi. Зev. Necati Lugal, Эstanbul, Tercüman, 1977, 512 s.
4. Əkbər N.N. Qızılbaş-Osmanlı düşmənliyinin iziylə. "Aydın yol" qəzeti, № 04, 25.11.14.
5. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 344 s.+8 s. (illüst.).
6. Həsən bəy Rumlu. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Kastamonu: Uzanlar, 2017, 661 s.
7. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Bakı: Şərq-Qərb Nəşriyyat evi, 2010, 1144 s.
8. Karadeniz Y. Safevi devleti'nin kuruluşu meselesi: kizilbaşlarin ortaya çikişi. Amasya Üniversitesi İlahiyat Fakültesi Dergisi. Cilt 2, sayı 3 (2014). s. 53-67.
9. Kaplan D. Şiiliğin İran topraklarinda egemenliği: Safeviler öncesi arka plan ve Safevi dönemi şiîleştirme politikalari. Marife-Şîa Özel Sayısı, yıl: 8, sayı: 3, Kış, Konya 2008, s.183–203
10. Köprülü M. Fuad. Türk istilasından sonra Anadolu tarih-i dinisine bir nazar ve bu tarihin menbaları. F. Babinger, F.Köprülü. Anadoluda islamiyyet. İnsan yayınları, İstanbul 1996, 146 s.
11. Kılıç M.E. Nimetullah-ı Veli. Türkiye Diyanet Vakfı İslâm Ansiklopedisi: Nesih – Osmanlılar Ankara: TDV, 2007, c.33, s. 133-134.
12. Küçükkalfa A. Nimetullâhiler, Safeviler ve Nimetulâhi Röportajlar (2014 ve 2015). Alevilik-Bektaşilik Araştırmaları Dergisi. №15, 2017. s.301-321.
13. Гордлевский В. Государство сельджукидов Малой Азии. М.: Академия наук АН СССР, 1941, 204 с.
14. Marağayi Z. İbrahim bəyin səyahətnaməsi. Hər iki kitab. YYSQ-nin rəqəmsal elektron nəşri N 34. file:///H:/qizilbashliq/Ibrahim_Beyin_Seyahetnamesi.pdf
15. Mazlum Uyar. Şiî Ulemânın Otoritesinin Temelleri, İstanbul: Kaknüs Yayınları, 2004, 352 s.
16. Ocak, Ahmet Yaşar. Osmanlı İmparatorluğu'nda Marjinal Sûfîlik: Kalenderîler (XIV-XVII.

Yüzyıllar), Ankara: Türk Tarih Kurumu Yayınları. (1992), XXXV + 267 + 24 sayfa).
17. Talibov M. Şedevr əsər. Qobustan jurnalı. http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=531

**БРАТСТВО НИМАТУЛЛАХИЙА В ПЕРИОД ПРАВЛЕНИЯ СЕФЕВИДОВ**

**А.С.АХМЕД**

**РЕЗЮМЕ**

Статья посвящена деятельности Ниматуллахийа в период правления Сефевидов. Ниматуллахи, в последствии принявшии шиизм, сыграли важную роль в процессе прихода к власти Сефевидов и распространения шиизма. Родство со святыми имамами еще более сблизило их с Сефевидской властью. Данная близость привела к тому, что они начали занимать высокие религиозные должности и вступили в близкие родственные связи с Сефевидской династией. Предпринимаемые шаги по усилению централизованного государства Сефевидов, в том числе усиление позиции класса духовенства, включая Ниматуллахийа, отрицательное отношение к суфиям в целом привели, в результате, к оказанию давления на религиозных деятелей и ограничению их деятельности. В то же время выступления некоторых групп странствующих отшельников, куда входили и нейматуллахи, против центральной власти были встречены сефевидским режимом сурово и завершились жестоким наказанием мятежников. В результате, основная часть религиозных деятелей покинула страну и продолжила деятельность в Индии. Оставшееся в стране ядро секты, в результате полной маргинализации, превратилось в структуры, организующие религиозные дебоши во время совершения обрядов мухаррема.

**Ключевые слова:** Ниматуллахийа, суфизм, Сефевидство, странствующии дервиши, кызылбаши.

**NIMATULLAHI IN SAFAVIDS PERIOD**

**A.S.AHMAD**

**SUMMARY**

The article is devoted to the investigation of the activity of Nimatullahi sect in Safavids period. The Nimatullahies, having adopted Shiitism, played a crucial role in Safavids' coming to ower and spreading Shiitism into wider territories. Belonging to a sacred Imam family and being the Shiiti supporters brought them closer to Safavids. And this closeness gave them an opportunity to be appointed to different top religious positions and form close relations with the Safavi dynasty. The steps taken to strengthen the centralized Sefevids state as well as the position of the spiritual class including the Nimatullahies, and the severe, repressive policy against the sects on total led to pressure on religious figures and restriction of their activities. Besides, some steps and arranged revolts against the centralized state by Dervish groups including Nimatullahi resulted in their strict punishment. As a result, the outstanding members of the Sect had to leave the country and continue their activity in India. The rest of the members became unimportant groups which organized sect fights during the Maharram rituals.

**Key words:** Nimatullahi, Sufi, Safavids, traveling dervishes, Qizilbash